UOT 555 S 323 H

**G. C. ŞAMXALOVA**

**Heydər Əliyev adına AAHM**

# HƏRBİ SAHƏDƏ İNGİLİS DİLİNİN ROLU VƏ ƏHƏMİYYƏTİ

İngilis dilinin hərbi sahədə rolu və əhəmiyyəti haqqında məlumat verilir.

Bu gün terrorizmin və müharibələrin baş alıb getdiyi bir dövrdə amerikan generalı Şarlmanın sözləri ( ikinci dil bilmək ikinci cana malik olmaq deməkdir ) tamamilə yerinə düşür.

Müharbə və terrorizmlə mübarizədə sözün dəyəri böyükdür. Terrorçu ilə dialoqa girən hər bir hərbçi sözlərinə diqqət etməli, onları ehtiyatla seçməlidir. Bunun üçün isə o, dili mükəmməl bilməlidir. Ağ Evin keçmiş Qərargah Rəisi və Müdafiə Departamentinin katibi, 2009-cu ildən mərkəzi Kəşfiyyat Agentliyinin Direktoru, konqressmen Leon Panetta hərbi sahədə dil təhsilini dəstəkləyərək deyirdi: "Əfsuslar olsun ki, bəzən hərbi qüvvələrdə dil istedadı olanlar naməlum və istifadəsiz qalırlar. Dilbilmə bacarıqları "hərbi müdafiə" qabiliyyətləri kimi qiymətləndirilməsə də onlar *silah qədər mühüm və vacibdir"*.

İndiki təlatümlü və narahat dövrüdə Beynəlxalq hərbi qüvvələrin üzvləri arasında, dünyanın qarışıq bölgələrində sülhsevər əməliyyatlar aparan qüvvələrlə yaxşı ünsiyyət qurmaq üçün ingilis dilini bilməyə tələbat durmadan artır. İngilis dili münaqişə zonalarında yerli liderlərlə hərbi qüvvələrin bir-birini düzgün anlamasında və birgə fəaliyyət göstərməsində də xüsusi rol oynayır.

İngilis dili coxmillətli hərbi qüvvələrin iştirak etdiyi NATO, Avropa İttifaqı, Birləşmiş Millətlər Təşkilatının sülh çərçivəsində əməkdaşlıq etməsini və bir-birilə yaxşı ünsiyyətə girməsini mümkün edir.

Hərbi əməiyyatlar zamanı hərbiçilərin bir-birilə ünsiyyət qurması üçün ingilis dili ən zəruri elementlərdən biridir. Bu əməliyyatlarda ingilis dilini mükəmməl bilmədən effektiv nəticə əldə etmək mümkün deyil.

Hal-hazırkı dövürdə məlumatın vaxtında dəqiq ötürülməsi və yazılması birinci dərəcəli əhəmiyyət kəsb edir. Sülh məramlıların fəaliyyətində komandirlərin düzgün ifadələrlə əmrlər verməsi və bu əmrlərin düz başa düşülüb icra olunmasında ingilis dili mühim rol oynayır. Müharibə zamanı məlumat sürətli, dəqiq və aydın olmalı, həmçinin, onları səhv anlamaq ehtimalı olmamalıdır. Tərəflərin və iştirakçıların bir-birini yaxşı başa düşməsi müharibə prinsiplərini sadələşdirir, planların dəqiqliyini artırır, əməliyyatların nəzərdə tutulduğu kimi icrasına kömək edir. Əməliyyat əmrləri sadə və anlaşıqlı olmalıdır, əks təqdirdə onlar fəlakətə və məğlubiyyətə səbəb ola bilər. Məsələn, 2006-cı ildə İsrail-Hizbullah münaqişəsi zamanı İsrailin doktrinanı səhv başa düşməsi Hizbullahın xeyrinə oldu. Əgər İsrail ordusu doktrinanı başa düşsə idi itki az, əməliyyat isə uğurlu olardı. Bu nöqteyi-nəzərdən hərbi sahədə ingilis dilinin əhəmiyyəti böyükdür.

Qeyd etmək lazımdır ki, hər bir ixtisasın öz peşə dili vardır. Bunlar peşə ilə bağlı təşkilatlara, avadanlıqlara aid işlək sözlərdir. Dilin hər bir növü kimi hərbi ingilis dilinin öz lüğəti, terminləri, akronimləri və idiomları var. Ona görə də Beynəlxalq layihələrə və əməliyyatlara cəlb olunan əsgərlərin və zabitlərin müvafiq dil bacarıqlarını inkişaf etdirməsi vacibdir. Peşə dilinin öyrənilməsi Silahlı qüvvələrdə olduğu qədər heç bir sahədə zəruri ola bilməz. Dil üzrə ekspert Corc Hiller (1996), hərbi dil barədə cıxışında ünsiyət vasitəsi aləti olan hərbi dil *"hərbi tələblərə cavab verməlidir"* deyə vurğulamışdır.

Həyatın kritik anlarında məlumatın vaxtında dəqiq ötürülməsi və yazılması birinci dərəcəli əhəmiyyət kəsb edir. İngilis dili şəxsiyyətə karyera qurmaqda və karyerada yüksəlməkdə kömək edir. Pentaqon rəsmilərindən biri dilbilmə qabiliyyətini belə xarektirizə etmişdir: "dilbilmə 21 - ci əsrin ən böyük silahlarındandır". Telekanala müsahibə verən Pentaqon generalı hərbi əməliyyatlarda dilin nə qədər vacib olduğunu xüsusulə vurğulayaraq deyirdi: - "dil həmişə Müdafiə Departamentində mühüm yerdə olmuşdur. Bu günün əsgər və zabitləri, dəniz və hava qüvvələri

şəxsiyyəti həmişəkindn daha ağıllı və bacarıqlıdırlar. Əgər onlar bir balaca dilin ucundan tutsalar işlərində daha müvəffəq olarlar".

Hərbi şəxsiyətin ingilis dilini bilməsi üçün Amerika Birləşmiş Ştatlarının ordusu (quru qoşunları) bir sıra adekvat addımlar atmışdır: Hərbi Akademiyada xüsusi hərbi dil fakültəsi, Baş Qərargahın kollecində hərbi dil bölməsi, Kaliforniyada isə dil (lingvistik) məktəbi açılmışdır. Bu sahədə yüksək peşəkarlarlıq səviyyəsinə malik minlərlə adam çalışır. Bundan əlavə dil insitutları və mərkəzləri fəaliyyət göstərir:

**1.Defense Language Institute (DLI)** - İingilis dilinin öyrədilməsində Birləşmiş Ştatların Müdafiə Departamentinin (United States Department of Defense - DoD) xidmətləri böyükdür. Onun nəzdində *Defense Language Institute (DLI)* - Müdafiə Departamentinin Dil İnstitutu fəaliyyət göstərir. Təhsil və tədqiqatla məşğul olan bu institutun xidmətindən yararlanmaq üçün dünyanın hər yerindən saysız-hesabsız müraciətlər olur. DLİ Dil Programına və institutun işlərinə məsuldur. DLİ – nin iki əsas obyekti: Defense Language Institute Foreign Language Center (DLIFLC) - Xarici Dillər Mərkəzi və Defense Language Institute English Language Center (DLIELC) - İngilis Dili Mərkəzi vardır. DLIFLC Kaliforniyada - Presidio, Montridə yerləşir, DLIELC isə Texasda Lakland Hava Qüvvələri bazasında fəaliyyət göstərir. Hər il 35.000 tələbə burada ingilis dili öyrənir;

**2.LIELC** - beynəlmiləl mülki və hərbi şəxsiyyətə ingiliscə danışmaq öyrədir. Beynəlmiləl tələbələrə (əksərən NATO ölkələrindən olan) Müdafiə Departamenti sponsorluq edir. Qəribə olsa da **ingilis dili amerikan hərbi şəxsiyyətinə ikinci dil kimi öyrədilir.** Eyni vaxtda tələbə heyətini 100 ölkənin nümayəndəsi təmsil edir. Əsas korpusu Texasda olsa da DLIELC ingilis dili öyrətmə proqramlarını Müdafiə Departamentinin dəstəyi ilə ölkənin xaricində - dünyanın hər tərəfində həyata keçirir;

**3.DLIFLC** - Birləşmiş Ştatların Müdafiə Departamenti Dil Proqramına əməl edərək təhsil verir, treyninqlər keşirir, dünyanın hər yerindəki hərbi linqvistləri dəstəkləyir. DLIFLC - nin üç məqsədi var: 1 amerikanlara hələ kiçik yaşlarından dil öyrətmək və dil bilən amerikalıların sayını artırmaq; 2 yüksək dilbilmə qabiliyyətətinə malik, səlis dildə danışanların sayını artırmaq; 3 Xarici dil müəllimlərinin sayını artırmaq və onları təmin etmək;

**"British Counsil"** - Birləşmiş millətlərin Müdafiə Departamenti və Birləşmiş Krallığın "British Counsul" (Britaniya konsulluğu) təşkilatının da bu sahədə əməyi az deyildir. Onlar ingilis dilinin xüsusilə hərbi ingilis dilinin başqa ölkələrdə öyrənilməsi üçün irimiqyaslı layihələr həyata keçirir.

British Counsil 1934-cü ildən Birləşmiş Krallıqda əsası qoyulan qeyri-hökumət təşkilatı olub Britaniyanın Xarici Ölkələrlə Əməkdaşlıq İdarəsi və Müdafiə Nazirliyi tərəfindən maliyyələşdirilir. British Counsil hərbi şəxsiyyətə ingilis dilini öyrətmək məqsədilə 1990-cı ildən ***"Peacekeeping English" (Sülhməramlı ingilis dili)*** proyektini həyata keçirməyə başlamışdır. Bu layihə indiyədək dünyanın 38 ölkəsində yayımlanmışdır və bu ölkələrin sayı durmadan artır.

**"Peacekeeping English"** (sülhməramlı ingilis dili) proyekti ümumdünya üzrə münaqişəni minimuma endirən Hərbi İngilis Dili Proyektini gerçəkləşdirir. Bir sıra ölkələrdə qlobal münaqişənin qarşısını almaq üçün yaradılmış fondlar bu layihələrə dəstək verir. Proyektin müddəalarına görə ingilis dili lazımdır:

-NATO, Aİ, BMT sülh çərçivəsində əməkdaşlıq edən cox millətli hərbi qüvvələrin bir-birilə yaxşı əlaqələr qurması üçün; -humanitar məqsədlər üçün; -münaqişə gedən və münaqişədən sonrakı situasiyalarda hərbi və təhlükəsizlik qüvvələrinin qeyri-hökumət təşkilatları agentliklərlə qarşılıqlı fəaliyyəti üçün.

**İngilis dili vacibdir:**

-narkotik daşınmasına və insan alverinə qarşı polis və sərhədçilərin apardığı mübarizədə;

-demokratik dəyərlərin qorunması və inkişaf etdirilməsində;

-insan hüquqlarına hörmət etməkdə və qorumaqda. Hərbi ingilis dili kursları və treyninqləri hərbi şəxsiyyətə, təhlükəsizlik heyətinə, diplomatlara, o cümlədən mülki heyətə ingilis dilini öyrədir. Onlar ehtiyac və tələbat olan yerlərdə dildən faydalana bilirlər.

**Hərbi İngilis Dili** - British Counsil – ın tədris proqamında ən mühim və təkamüldə olan elementlərindən biridir. Britaniyanın Xarici Ölkələrlə Əməkdaşlıq İdarəsi Müdafiə Nazirliyi ilə birgə Afrikada, post sovet respublkalarında və dünyanın bir cox yerlərində hərbi şəxsiyyətin ingilis dili bacarıqlarını inkişaf etdirmək üçün səy göstərir.

**Defence School of Languages** Böyük Britaniyanın Müdafiə Nazirliyinin Dillər Məktəbinin (***Defence School of Languages***) ingilis dili bölməsi ***(English Language Wing)*** cox çeşidli, geniş miqyaslı treyninqlər keçirir. *Defence School of Languages English Language Wing* treyninqlərində çavuş rütbəsindən general-leytenant rütbəsinə kimi dəniz, hava və quru qoşunlarının nümayəndələri, həmçinin, mülki müdafiə qulluqçuları iştirak edirlər. Burada hər il 51 millətin 300 - dən cox nümayəndəsi hərbi dil öyrənir. English Language Wing treyninqlərini hərbi mühitdə keçir, imtahanlarını isə NATO STANAG 6001 (SLP) standartlarına uyğun olaraq aparır.

**STANAG 6001** - NATO-nun üzv ölkələri arasında ortaq hərbi və texniki prosesslərin, prosedurların aparılması, avadanlıqların və silahların istifadəsi şərtlərini müəyyənləşdirən *Standartlaşdırma Sazişinə* əsasən, ingilis dili dörd dil qabiliyyəti: - dinləmə, oxu, danışıq və yazı bacarıqları üzrə altı səviyyədə öyrədilir:

-0-no proficiency (səviyyə yoxdur); -survival - bir az mövcuddur; -functional – funksional;-professional - peşəkar; -expert - mahir; -highly-articulate native - yüksək dərəcə (doğma dil səviyyəsində).

Qeyid edək ki, bu səviyyələr STANAG testlərinin nəticələrinə əsasən müəyyən olunur. *TOEIC (Test of English for International Communication)* testi - General English (umumi ingilis dili) qabiliyyətlərinin meyarıdır. O da STANAG səviyyələrinə görə hər bir şəxsin bilik səviyyəsini qiymətləndirə bilər.

İngilis dilində danışa bilmək hərbi şəxsiyyət üçün cox faydalıdır. İndi demək olar ki cox ölkələrdə uşaqdan - böyüyə kimi hamı azdan-coxdan ingilis dilini bilir. Bu əsgərlərə sülhməramlı əməliyyatlar zamanı yerli ictimaiyətlə dialoqa girməyə kömək edir. Tarix göstərir ki, yerli əhalinin hörmətini qazanmaq hərbi əməliyyatda uğur qazanmaq kimidir. Beynəlxalq təşkilatlarda çalışan və ya sülhməramlı əməliyyatlara göndərilən əsgər və zabitlərin hərbi ingilis dilini bilməsi vacibdir.İngilis dili bilməyin bir cox üstünlükləri və faydaları vardır:

-hər yerdə öz sözünü demək imkanı; -hərbi karyerada irəliləmə; -hərbi və sülhməramlı müzakirələrdə iştirak etmək; -diplomatik danışıqlarda effektiv nəticələr əldə emək; -dünyagörüşünü artırmaq; -iş tapmaqda köməklik; -ingilis dilini bilməyə görə əlavə əmək haqqının verilməsi; -internetin imkanlarından geniş istifadə etmək; -doktrina və digər hərbi nizamnamə və instruksiyaları düz başa düşmək;

*Sülhə Tərəfdaş Ölkələrin (Partneership for Peace)* zabitləri NATO-nun sülh və əmin-amanlığı bərqərar etmək üçün apardığı əməliyyatlar zamanı qərargahın coxmillətli briqadası ilə işləməli olurlar. İngilis dili NATO-nun apardığı hərbi tədbirlərdə müştərək iştirak etmək, NATO-ya üzv olmaq üçün əsas şərtlərdən biridir.

1994-ci ilin may ayından *Azərbaycan Sülhə Tərəfdaş Ölkələr sırasına qoşulmuşdur.* 1997-ci ildən Azərbaycan Ordusunun Sülhməramlı bölməsi yaranmışdır. 2017-ci ildən onların sayı 90 nəfərdən 120-yə artmışdır.

21-ci əsrdə müharibə üsullarına yeni yanaşma tərzi hərbi qüvvələrdən dilbilmə qabiliyyəti tələb edir. Odur ki, ölkəmizdə hərbi təhsil müəssələrində-o cümlədən məktəblərdə ingilis dili tədris olunur. Hər il kursantla STANAG imtahanlarına hazırlıq keçir. Azərbaycan Müdafiyə Nazirliyi hərbi sahədə ingilis dilinin öyrənilməsinə böyük diqqət verir. "Study Abroad" (Xaricdə Təhsil) proqramına müvafiq olaraq hər il kursant və zabitlərimiz dünyanın müxtəlif ölkələrində hərbi dil kurslarına və treyninqlərə ezam olunurlar.